Türküstan №36 10 – 16 oktyabr 2023-cü il





**Rafiq Tağı**

# Sevgi nağılı

**(Hekayə)**

**Çox ölüm, ölüm deyirlər**
**Elə bilirlər ölümə gedir**
**Hər torpaq altına gedən.**
*(Vaqif Cəbrayılzadə)*

***Kitabxananın girəcəyində mərmər döşəmə üzərində bir uşaq uzanmışdı; bilmək olmurdu yatıb, ya ölüb. Ətrafdakı şüşə qırıntıları da elə bərq vururdu, deyirdin ora Günəş yıxılıb. Aralıda başına toplanıb ovundurulan Rəna xanımdı.***

***O, mətbuat zalının işçisiydi. Hərəylə də bir cür gələcəkdən-gedəcəkdən xırdalamağı vardı.***

***"Bu dünyanın işləri bir əfsanədir" – hər söhbətinin axırında bunu deyəndə içəridəki qulağı darı dələn işçilərdən kimsə ona sataşardı:***

***– Yox, səni təzədən ərə vermək lazımdır.***

– Hə, dərdim qurtarıb.

Onun haqqında bildiyim bu idi ki, oğlu iki yaşın içindəykən ərindən ayrılıb. Ərini heç üzdən görməsəm də, artıq bilirdim ki, pis adam olub, çünki özlüyümdə Rəna xanımı yaxşı adam tanımışdım.

"O mənim üçün ölüb, baxmayaraq ki, akademiyanın almayanaq elmi işçilərindəndir. Sevmədiyin adamdan ayrılırsansa, o ölür. Ayrılıqdan əlli il sonra da ola bilər o, yemək yesin, akademiklər akademiki olsun, ancaq artıq ölülər cərgəsində gedəcək. Lap onunla danışa da bilərsən, ancaq bu, hökmən yuxuda ölənlə danışmağın eynidir, qarabasmadır".

"Bəlkə ayrıldığın da səni sevmir, onda necə, onda sən də onun üçün ölürsən?" – səhvən birinci və ağıllıcasına axırıncı dəfə dediyim bu söz Rəna xanımı yaman tutdu. O, ölü halında yaşamaq istəmirdi.

"O məni sevirdi", – dedi. Sevmədiyi adamın haçansa onu sevməsi hələ də təsəlli verirdi. Mən də daha ucunu tutub ucuzluğa getmədim, demədim ki, bəlkə indi sevmir. O ki, onun deməyilə, ölüb. Rəna xanım ölünün xatirəsində də diri qalmaq istəyirdi. Diri qalmaq, nədənsə, həmişə xoşdur.

...Uşaq get-gedə yuxarı mərtəbələrdən axışanların nəzərində ölməkdəydi, bəzən qabaqda gələnin nəzərində ölü olurdu, arxadakınınsa – diri, ya da əksinə.

Qadınlar Rəna xanımı qoymurdular öz ağlıyla düşünə, eləcə "Sağdır", – deyirdilər. "Axı ölüb mənim balam!...

Bircə buraxın məni!..." "Rəna xanım, bacı canı, uşaq sağdır, heç qorxma, ancaq hələlik ora olmaz". "Axı niyə olmaz? Sağın da yanına olar, ölünün də!"

Kitabxana müvəqqəti bağlanmışdı. Paltarasan pudluq döşlərini söykənəcəyin üstünə yıxıb səbrsizliklə gözləyirdi ki, indicə gəlib kimisə tutacaqlar. Onun zənnincə adam ölümünün yeganə məntiqi nəticəsi kiminsə tutulmağıdır.

***Uşaq yaxındakı məktəbdə dərsdən çıxıb kitabxanaya gəlib ki, işin axırında anasıyla evə getsin. Vaxt varkən özünü ora-bura vurmağa başlayıb. Elə bil həmin saat ölüm ona çox lazımmış, ya alın yazısının vaxtı qurtarırmış. Qalxıb kitabxananın kəlləsinə – fərasətə bax, necə də bilib əcəli ordadır. Ölümünün yerini bilən uşaqlar dünyanın ən böyük insanı ola bilər, ancaq hayıf tez ölüb gedirlər. ...Çıxdığı yer də içəriyə işıq düşsün deyə bədii şüşəylə örtülü. Uşaq elə bilib sınmaz, ancaq şüşəyə ayağını basmağıyla kəlləmayallaq yerə gəlməyi bir olub.***

Paltarasanın xəyalı at kimi ora-bura çapmaqdaydı. Onun zənnincə kitabxana çoxdan tikiləndir və arxitektorları da çoxdan torpağa qarışıb. Onda, görəsən, günahı kimin üstünə yıxacaqlar. Qorxasan heç kəsi tutmayalar, onda ölümün bütün ləzzəti qaçar. Arvad əvvəl ruhdan düşmüşdüsə də, sonra təzədən ruhlandı: dünyasında elə şey ola bilməz ki, o boyda igid ölə, tutmağa bir adam tapmayalar.

O gün çöldə yağış yağırdı, payız yarpaqları yağışın ağırlığına tablaşmayıb yerə tökülürdü. Uşaq payızın badına getdi; yayda bəlkə də ölməzdi – gördü yarpaqlar düşür, o da düşdü.

***

O əhvalatdan sonra Rəna xanım işini dəyişdi. Kitabxana ona düşmədi. Girəcəkdə uşağın yıxıldığı yerdən adamlar ötəndə elə bilirdi balasını tapdayıb keçirlər. Özü o yeri dolanıb keçərdi.

Sifəti qara-qançır olmuş uşaq mənim də xəyalımdan getmirdi. O cəmicümlətani on bir il yaşadı. Yaşadı deyəndə gah dizenteriya keçirtdi, gah göy öskürək. Qrip sarıdan da heç kimdən geri qalmazdı. Qızılca payını da ödəmişdi. Tale ona əzab çəkməyi rəva bilmişdi, oynamağı, sevinməyisə çox gördü.

***

Təcili yardımda işlədiyimdən hər növbəmdə onlarla ailədə oluram. Adamlar daha çox həyatlarının xoşbəxt üzlərini göstərməyə çalışır, xəstəlikdən başqa nə bədbəxtlikləri varsa gizlədirlər, hərçənd bu həmişə alınmır. Bir gün bədbəxtliyini gizlətməyən bir qadına baxırdım.

Onu hardasa görmüşdüm, ancaq harda gördüyümü araşdıra bilmirdim. Familiyasını deyəndə diksindim: "Rəna xanım!" Əvvəl çaşdımsa da, haçandan-haçana özümə gələndə gülümsünüb ona baxdım (bəlkə də bədbəxt adamın üzünə gülümsəmək lazım deyildi...).

– Məni tanımadınız? – soruşdum.

– Tanış gəlirsiniz...

– Haçansa filosofyana söhbətlər eləyərdik...

– A-a, lap huşsuz olmuşam, – əlini alnına vurdu. –Əlbəttə, tanıdım! Necəsiniz?

Uşaq yadına düşməsin deyə ehtiyatla keçmiş kitabxana xatirələrinə keçdim. Bəlkə də kitabxanadan danışmaq yaraşmazdı; danışmazdım da, ancaq hayıf mənim onunla bağlı başqa bir xatirəm yoxdu.

Divarların dördü də böyüdülmüş uşaq şəkilləriləörtülüydü. Otaq elə bil fotoatelye idi. Yarasını təzələməyim deyə onun nəzəri məndə olanda qorxumdan şəkillərə baxmırdım.

– Bax, hər gün anasıyladır, di gəl danışa bilmir, – o, şəkilləri göstərmək istəyəndə tez çalışdım onun fikrini yayındıram.

***– ...İndi də gərək qan təzyiqinizi ölçəm.***

***O, qolunu yad bir əşya kimi mənə uzatdı.***

***– ...Eləcə on bir yaşında qalıb. Mənim lap doxsan yaşım da olsa, oğlum elə uşaq qalacaq... ayıbdı da. Getmişdim hərbi komissarlığa, dedim yaşı çatar, əsgər aparsınlar, aparmadılar. Ancaq çalışacağam aparsınlar. Bəlkə tanışınız olar?... Hayıf, oğlum pis bir xasiyyət tapıb: mən öləndə o da öləcək. Necə eləyək ki, mən öləndə o ölməsin? Ya heç olmasa elə eləyək o ölməsin deyə mən də ölməyim.***

***Bu dünyada hər şeyin başı sevgidir. Keçmiş əri akademiyada işləsə də, ölmüşdü, oğlusa ölsə də, yaşamaqdaydı.***